

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 65 (24.202)

13 aprel 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Şimali Makedoniya Respublikasının xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Buyar Osmanini qəbul edib.

Dövlətimizin başçısı beynəlxalq tədbirlər əsnasında Şimali Makedoniyanın Prezidenti və Baş naziri ilə olan təmaslarını məmnuniyyətlə xatırladı.

Qəbula görə təşəkkürünü bildirən Buyar Osmani ATƏT-in fəaliyyətdə olan sədri kimi Şimali Makedoniyanın prioritetləri barədə dövlətimizin başçısına məlumat verdi. Bildirdi ki, Şimali Makedoniya sədrliyi çərçivəsində "Hər şey insanlar üçün" konsepsiyasını əsas götürüb və sədrlik prosesində də bu əsasda insanlara köklənən siyasətin həyata keçirilməsi istiqamətində çalışıb. O, ATƏT-in Şimali Makedoniyaya üzv dövlət kimi verdiyi dəstəyini xatırladaraq, hazırda ölkəsinin bu təşkilatın gündəliyində duran məsələlərin həllinə öz töhfəsini verməyə çalışdığını dedi, bu baxımdan Şimali Makedoniyada daxili siyasətdə "Hamı üçün vahid cəmiyyət" konsepsiyasından çıxış etdiyini bildirdi, ölkə daxilində və regionda postmünaqişə şəraitində barışığın təmin olunması istiqamətində həyata keçirilən layihələr barədə məlumat verdi. Bu xüsusda ölkəsinin əldə etdiyi təcrübəni Cənubi Qafqaz regionu ilə də bölüşməyə hazır olduğunu diqqətə çatdırdı.

Azərbaycan Prezidenti Şimali Makedoniyanın və ümumilikdə, Balkan regionunun etnik barışıq konsepsiyasının, reinteqrasiya və inklüziv cəmiyyətin yaradılması təcrübəsinin Cənubi Qafqaz üçün də maraqlı ola biləcəyini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın üç Cənubi Qafqaz ölkəsinin bir araya gələrək görüş keçirməsi ilə bağlı təklifini xatırladı.

Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında hazırda sülh prosesinin iki istiqamət üzrə həyata keçirildiyini diqqətə çatdırdı. Bu baxımdan dövlətimizin başçısı Azərbaycanın Qarabağ iqtisadi regionundan olan erməni sakinlərlə birbaşa təmasların həyata keçirilməsi istiqamətində Bakıda görüşlərin təşkil edilməsinə dair təkliflərlə çıxış etdiyini vurğuladı və bu xüsusda Azərbaycan tərəfindən xüsusi nümayəndənin təyin edildiyini dedi və onların Bakıya həm reinteqrasiya, həm də müxtəlif infrastruktur layihələrinin müzakirəsi məqsədilə dəvət edildiyini bildirdi. Prezident İlham Əliyev, eyni zamanda Ermənistanla Azərbaycan arasında ikitərəfli əsasda sülh müqaviləsi üzrə və münasibətlərin normallaşdırılması istiqamətində danışıqların aparıldığını diqqətə çatdırdı.

Dövlətimizin başçısı dünən Ermənistan-Azərbaycan sərhədində baş vermiş insidenti qeyd edərək, bunun Ermənistan tərəfindən məqsədyönlü şəkildə törədilmiş təxribat olduğunu bildirdi.

Buyar Osmani ATƏT-in Azərbaycanda humanitar minatəmizləmə, yaşıl liman və digər praktiki layihələrə töhfə verə biləcəyini qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın ATƏT ilə əməkdaşlığına praktiki müstəvidə baxdığını qeyd etdi. Dövlətimizin başçısı bu xüsusda transsərhəd çaylar üzrə birgə əməkdaşlıq, humanitar minatəmizləmə, yaşıl limanlar, Orta Dəhliz kimi konsepsiyalar üzrə praktiki və praqmatik əməkdaşlıq layihələrinin icra olunması imkanlarına baxılmasının mümkünlüyünü diqqətə çatdırdı.

Görüşdə, həmçinin Azərbaycanla Şimali Makedoniya arasında nəqliyyat, enerji və qarşılıqlı maraq doğuran digər ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olundu.

**AZƏRTAC**

## Naxçıvanda şəhidin qarşılanma mərasimi keçirilib





Aprelin 11-də Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətindəki üzbəüz mövqelərini müxtəlif çaplı silahlardan istifadə etməklə atəşə tutub. Ermənistan tərəfinin təxribatının qarşısını alarkən 3 hərbi qulluqçumuz şəhid olub. Onlardan biri də Naxçıvandan olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu əsgər Tağıyev Səbuhi Gündüz oğludur.

Aprelin 12-də Naxçıvan Beynəlxalq Hava Limanında şəhidin qarşılanma mərasimi olub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, Türkiyənin Naxçıvandakı Baş konsulu, Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəliyinin əməkdaşları və şəhidin ailə üzvləri tədbirdə iştirak ediblər.

Şəhidin üçrəngli bayrağımıza bükülmüş cənazəsi hərbçilərin müşayiəti ilə mərasim yerinə gətirildi.

Səlahiyyətli nümayəndə və tədbir iştirakçıları şəhidin xatirəsinə ehtiramlarını bildirdilər.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun əsgərləri tərəfindən yaylım atəşi açıldı.

Sonra "Qurani-Kərim"dən ayələr oxundu, şəhid cənazəsinin önündən keçildi.

Şəhidin cənazəsi Şahbuz rayonunun Badamlı qəsəbəsinə yola salındı.

Səlahiyyətli nümayəndə şəhidin ailə üzvləri ilə görüşərək başsağlığı verdi.

**"Şərq qapısı"**

## Naxçıvanın səhiyyə naziri vəzifəsindən azad olunub – nazir səlahiyyətləri Samiq Sadıxova verilib

Niyazi Hüseynqulu oğlu Novruzov Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsindən azad edilib. Bu gün imzalanan digər sərəncamla Samiq Asəf oğlu Sadıxov Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini təyin edilib. Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyəti nazir müavini Samiq Sadıxova verilib.

Bu barədə sərəncamları Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov imzalayıb.

Bu gün Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov Samiq Sadıxovu kollektivə təqdim ediblər.

Təqdimatdan öncə səhiyyə naziri Teymur Musayev Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edib, Ulu Öndərin xatirəsinə ehtiramını bildirib.

Təqdimat zamanı Fuad Nəcəfli və Teymur Musayev Naxçıvanda səhiyyə sahəsində fəaliyyəti geniş təhlil edib, buraxılan nöqsanlara diqqət çəkib, işin müasir dövrün tələblərinə uyğun yenidən təşkili barədə tapşırıq və tövsiyələrini çatdırıblar.

Qeyd edək ki, 1987-ci ildə Naxçıvan şəhərində anadan olan Samiq Sadıxov bu təyinatadək "Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin direktoru vəzifəsində çalışırdı.

**"Şərq qapısı"**

## S.A.Sadıxovun Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Samiq Asəf oğlu Sadıxov Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 12 aprel 2023-cü il*

### S.A.Sadıxova Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyətinin verilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyəti nazirin birinci müavini Samiq Asəf oğlu Sadıxova verilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 12 aprel 2023-cü il*

### S.A.Sadıxovun "Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin direktoru vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Samiq Asəf oğlu Sadıxov "Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin direktoru vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 12 aprel 2023-cü il*

### N.H.Novruzovun Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Niyazi Hüseynqulu oğlu Novruzov Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 12 aprel 2023-cü il*

## Şəhidlik Vətən sevgisi ilə qazanılan əbədiyyət zirvəsidir



Əsrlərdən bəri dədə-baba torpaqlarımıza qarşı ərazi iddiaları ilə çıxış edən əzəli düşmənimiz ermənilər öz məkrli planlarından, hiylələrindən hələ də əl çəkmir, sərhəddə təxribatlar törədir, sülh planını təxirə salır. Görünür, 44 günlük haqq savaşımızda qazandığımız qələbədən sonra bütün dünya qarşısında rəzil duruma düşən xain düşmən torpaqlarımızın bərpasını həzm edə bilmir. Amma əzəli və əbədi yurdumuzu yağmalamaq üçün min fitnə-fəsada, xüsusi qəddarlığa əl atan yağı düşmənin törətdiyi faciələrin miqyası nə qədər böyük olsa da, igid oğullarımızın cəsarəti, mətanəti, dəyanəti, hünəri bir o qədər yenilməzdir.

Aprelin 11-i axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətindəki üzbəüz mövqelərini minaatan və iriçaplı silahlardan da istifadə etməklə atəşə tutub. Hərbi qulluqçularımızın sayıqlığı nəticəsində Ermənistan tərəfinin təxribatının qarşısı qətiyyətlə alınıb, atəş mövqeləri susdurulub. Ordumuz tərəfindən görülən cavab tədbirləri zamanı Ermənistan silahlı qüvvələrinin bölmələri xeyli sayda itki verib. Ermənistan tərəfinin təxribatının qarşısını alarkən Azərbaycan Ordusunun üç hərbi qulluqçu şəhid olub. Təxribat nəticəsində şəhid olanlar sırasında ərənlər diyarı Naxçıvanın igid oğullarından Tağıyev Səbuhi Gündüz oğlu da var. Şəhidin cənazəsi dövlət rəsmilərinin və çoxsaylı əhalinin iştirakı ilə Naxçıvan Beynəlxalq Hava Limanında ehtiramla qarşılanıb. Şəhidimizin nəşi Şahbuz rayonunun Badamlı qəsəbəsinə yola salınıb. Burada da şəhidimiz izdihamla qarşılanıb, "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı səsləndirilib. Şəhidin dəfnində dövlət və hökumət nümayəndələri, Əlahiddə Ümumqoşun Ordunun, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Şahbuz Rayon İcra Hakimiyyətinin əməkdaşları, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Şəhid hərbi qulluqçumuz Badamlı qəsəbə qəbiristanlığında torpağa tapşırılıb. Vida mərasimində cənazə namazı qılınıb, şəhidimizin ruhuna dualar oxunub. Çıxış edənlər bildiriblər ki, Vətən torpaqlarının azadlığı uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi əbədi yaşayacaq, onların qisası düşməndən ikiqat alınacaq. Şəhidin atası Gündüz Tağıyev övladına göstərilən ehtirama görə minnətdarlığını bildirib.

Sonra üçrəngli Azərbaycan bayrağı şəhidimizin atasına təqdim edilib və yaylım atəşi açılıb.

...İgidlikləri ilə zamanın daş yaddaşına tarix yazan, əsrlər, qərinələr keçsə belə həmişə xatırlanan, ürəklərdə əbədi olaraq şirin xatirələrə dönərək yaddaşlarda yaşayan, gələcək nəsillərə örnək olan Azərbaycanın qəhrəman oğulları hər zaman bir amala xidmət edib: Yaşasın, Azərbaycan! Onlar Vətən yolunda, torpaq yolunda, xalq yolunda ölümün gözünə dik baxaraq cəsarətlə amansız, vəhşi düşmənlə mübarizədə əsl qəhrəmanlıq, rəşadət göstərərək şəhid olublar. Vətənə sevginin, məhəbbətin, vətənpərvərliyin, yüksək mənəviyyatın ən gözəl nümunəsi olan şəhidlər üçün Vətəni qorumaq, Vətən üçün yaşamaq və Vətən üçün ölmək şərəflidir. Bu gün Səbuhi Tağıyev kimi qorxmaz, igid, mərd, dəyanətli oğulların hesabına üçrəngli, ay-ulduzlu bayrağımız əzəli və qədim torpağımız Qarabağda əbədi dalğalanır. El qədrini öz canından əziz bilən, Vətəni üçün mərdliklə vuruşub şəhidlik zirvəsinə yüksələn Səbuhi kimi qeyrətli oğullara xalq olaraq ömürlük minnətdarlıq hissi duyur, onların əziz xatirəsini ehtiramla yad edirik.

✍ **Gülcamal TAHİROVA**

*Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi tərəfindən 2022-ci ildə 13 audit və 10 analitik fəaliyyət aparılması planlaşdırılıb. Bu, Hesablama Palatasının 2022-ci il üzrə fəaliyyət hesabatında yer alıb.*

## Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin apardığı yoxlamaların nəticələri açıqlanıb

Qeyd edilib ki, hesabat ilində 1 obyektin hüquqi forması dəyişdirildiyindən nəzərdə tutulmuş analitik fəaliyyət təxirə salınıb.

Kənar dövlət maliyyə nəzarəti tədbirləri bir sıra nəzarət obyektləri tərəfindən büdcə layihələrinin düzgün tərtib edilmədiyini deməyə əsas verir. Belə ki, obyektlər tərəfindən proqnozlaşdırma aparılarkən əvvəlki illərin faktiki göstəriciləri nəzərə alınmayıb, tələbat düzgün müəyyənləşdirilməyib və smetaya əsassız artımlara tərtib edilib. İlin sonunda nəzarət obyektləri tərəfindən təsdiq olunmuş smetaların iqtisadi təsnifatın paraqrafları üzrə istifadə edilməmiş vəsaitlərinin azaldılaraq ehtiyat fonduna yönəldilməsi hallarına rast gəlinib. Auditlər zamanı 10 obyekt üzrə bəzi hallarda vahid büdcə təsnifatı ilə müəyyən edilmiş istiqamətlərə riayət olunmadan 54 min manat istifadə edildiyi üzə çıxıb.

Hesablama Palatası tərəfindən Naxçıvanda aparılan yoxlamalar zamanı əməyin ödənişi üzrə bir sıra nöqsanlar da müəyyən edilib. Bildirilib ki, əmək məzuniyyətindən qayıtmış işçi ilə hesablaşmalar və vəfat etmiş işçi üçün ödənilən birdəfəlik müavinət və işdən azad olunan işçilərə ödənilən son haqq-hesab düzgün hesablanmayıb, ixtisas dərəcəsinin verilməsi zamanı staj nəzərə alınmayıb. Həmçinin nəzarət obyektlərində bir sıra hallarda əməkdaşların vəzifəyə təyin olunması zamanı ixtisasa dair tələblərin gözlənilməməsi, kənardan cəlb edilmiş işçilərlə xidməti müqavilələrin düzgün bağlanmaması kimi hallara yol verilib. Qeyd edilən nöqsanlar nəticəsində auditin əhatə etdiyi dövr ərzində kənar dövlət maliyyə nəzarəti (KDMN) obyektləri üzrə – 13,5 min manat artıq və 4,2 min manat əskik ödəmələrin həyata keçirildiyi müəyyən edilib.

Naxçıvanda 5 kənar dövlət maliyyə nəzarəti obyekti üzrə 2017-2022-ci illəri əhatə edən dövr ərzində, ümumilikdə, 18,7 milyon manatın istifadəsi zamanı "Dövlət satınalmaları haqqında" qanuna müraciət edilməyib.

Sadalananlarla yanaşı, ilkin uçot sənədlərinin tərtibində uyğunsuzluqlar və xidmət sahələrində gəlirlər üzrə vergi ödənişlərinin tam şəkildə həyata keçirilməməsi halları da müşahidə edilib. Bir nəzarət obyekti üzrə 6,8 min manat vergi yayınması halı olub.

**Xəbərlər şöbəsi**

## Ermənistan məğlubiyyətlə barışıb sülhə imza atmalıdır

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev deyib: ***"Elə bilməsinlər ki, biz daim onlardan sülh tələb edəcəyik. Əgər Ermənistan buna hazır deyilsə, onda bu, olmayacaq. Olmasa nə olacaq? Heç nə. Biz nə itirəcəyik? Heç nə itirməyəcəyik, nə bu gün, nə sabah. Amma itirən tərəf Ermənistan olacaq".***

2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi Azərbaycanın Şanlı Qələbəsi ilə başa çatdı. Həmin il noyabrın 10-da imzalanan üçtərəfli bəyanata əsasən Ermənistan kapitulyasiya aktına imza atmaqla məğlubiyyətini də etiraf etdi. O gündən üç il keçməsinə baxmayaraq, Ermənistan tərəfi öz işğalçılıq, təxribatçılıq siyasətindən əl çəkmir. Dəfələrlə tərəflər arasında baş tutan ikitərəfli, beynəlxalq səviyyədə görüşlər həmişə Ermənistanın əsl məqsədini, iç üzünü, sülh məsələsinə laqeydliyini ortaya qoyub. Bu görüşlərdən çıxan nəticədən isə aydın olur ki, Ermənistan sülh istəmir və ya bu danışıqları yubatmaqla sülh prosesinə uymayan təkliflər irəli sürmək və mütəmadi olaraq sərhəddə təxribatlar törədir, öz çirkin məqsədlərini həyata keçirməkdə davam edir. Bu onu göstərir ki, Ermənistan hələ də acı məğlubiyyətini həzm edə bilmir. Lakin bilməlidir ki, 30 il bundan əvvəlki planları yenidən işə salmaq artıq mümkün deyil. 2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Günnüt zəfəri, həmçinin 2020-ci il İkinci Qarabağ müharibəsində qüdrətli, yenilməz Azərbaycan Ordusu onlara layiqincə dərs verib.



Prezident cənab İlham Əliyev dəfələrlə beynəlxalq konfranslardan Ermənistanı təxribatçı əməllərdən çəkinməyə, sülh dövrünə qədəm qoymağa çağırıb. Ölkəmiz hər dəfə Cənubi Qafqazda daim sülhün, sabitliyin, təhlükəsizliyin tərəfdarı kimi çıxış edib. Fevralın 18-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda keçirilən panel iclasda hər iki ölkənin məqsədi, məramı aydın idi. Prezident cənab İlham Əliyev Ermənistanla sülhün Cənubi Qafqazda təhlükəsizlik üçün önəminə toxunaraq vurğuladı ki, hazırda Azərbaycan Ermənistan ilə sülh sazişi üzərində çalışır. Dövlətimizin başçısı ümid etdiyini bildirib ki, bu, ciddi tarixi fikir ayrılığına malik olan ölkələrin bir araya gəlməsi və düşmənçilik səhifəsinin bağlanmasında yaxşı nümunə ola bilər... Lakin Ermənistanın baş nazirinin heç bir fakta əsaslanmayan, dolayı fikirlərindən aydın oldu ki, onların sülh məsələsindən də "vacib" başqa işləri vardır. İşğaldan azad edilmiş ərazilərdə müvəqqəti yerləşən Rusiya sülhməramlı kontingentinin üçtərəfli bəyanatın bəndlərinin yerinə yetirilməsini tam təmin etməməsi Ermənistanı daha da "ürək"ləndirir. Bu da Ermənistanın regionda sülhə və təhlükəsizliyə zərbə vurması ilə nəticələnir.

Müdafiə Nazirliyinin məlumatlarına istinadən aprelin 11-i Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətində yerləşən üzbəüz mövqelərini atıcı silahlardan intensiv atəşə tutub. Ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb. Daha sonra qarşı tərəf minaatan və iriçaplı silahlardan da istifadə etməklə mövqelərimizi atəşə tutmaqda davam edib. Hərbi qulluqçularımızın sayıqlığı nəticəsində Ermənistan tərəfinin təxribatının qarşısı qətiyyətlə alınıb, atəş mövqeləri susdurulub. Ordumuz tərəfindən görülən cavab tədbirləri zamanı Ermənistan silahlı qüvvələrinin bölmələri xeyli sayda itki verib...

Ermənistan tərəfinin təxribatının qarşısını alarkən Azərbaycan Ordusunun hərbi qulluqçuları Zalov Vidadi Nizami oğlu, Həsənov Elşad Qabil oğlu və Tağıyev Səbuhi Gündüz oğlu şəhid olub, dörd hərbi qulluqçumuz yaralanıb. Dünən 1998-ci il təvəllüdlü, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Səbuhi Tağıyevin Naxçıvan Beynəlxalq Hava Limanında qarşılanma mərasimi olub. Şəhidin cənazəsi Şahbuz rayonunun Badamlı qəsəbəsində torpağa tapşırılıb.

Ermənistanın üzərinə düşən öhdəlikləri yerinə yetirməyərək sülh təklifinə qarşı atdığı bütün zidd addımlar onun dövlətimizə qarşı məkrli siyasətinin təzahürüdür. Ermənistan təxribatçılıq, terrorçuluq mövqeyindən əl çəkməli, bu gün ona yalandan dəstək verməklə qızışdıranların bir gün onun özünə qarşı əks mövqedə olacaqlarını unutmamalıdır. Sonda ölkə başçısının da qeyd etdiyi kimi itirən tərəf Ermənistan olacaq! Artıq onun sülhdən başqa çıxış yolu qalmayıb.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib



Naxçıvan Dövlət Universiteti və Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə Beynəlxalq münasibətlər və hüquq fakültəsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə “Heydər Əliyev mütərəqqi hüquqi islahatların banisi” mövzusunda elmi-praktiki konfrans keçirilib.

Tədbiri giriş sözü ilə açan universitetin tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamına əsasən 2023-cü ilin “Heydər Əliyev İli” elan olunması ilə əlaqədar ali təhsil ocağında keçirilən müxtəlif tədbirlər barədə məlumat verib.

“Azərbaycan dövlətçilik strategiyasında Ulu Öndər Heydər Əliyevin hüquqi islahatları” mövzusunda çıxış edən Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət şöbəsinin rəis müavini əvəzi, kiçik ədliyyə müşaviri Ələkbər Hüseynov bildirib ki, ***“Dövlət dövlətçiliyi qorumalıdır”*** fikrini dönə-dönə vurğulayan görkəmli dövlət xadiminin çox qəti və prinsipial mövqedən çıxış etməsini, ciddi intizam, tələbkarlıq və dövlət mənafeyi kimi amilləri diqqətdə saxlanılmasını ön plana çəkib. Ölkədə geniş vüsət almış cinayətkarlığın bütün ünsürlərinə qarşı qəti mübarizə aparmaq üçün 1994-cü ildə imzaladığı xüsusi Fərman qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaradıb. Eyni zamanda milli dövlətçiliyin inkişafında korrupsiyanın aradan qaldırılmasının əhəmiyyəti nəzərə alınaraq bu ümumbəşəri sosial bəla ilə mübarizəyə başlanılıb, cəmiyyətdə hökm sürən hərc-mərcliyə və özbaşınalığa birdəfəlik son qoyulub.

Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatının sədri, Hüquq fənləri kafedrasının müəllimi Əziz Qasımov “İnsan hüquqları Ulu Öndər Heydər Əliyevin banisi olduğu hüquqi islahatların prioritet istiqaməti kimi” mövzusunda məruzəsində bildirib ki, Ümummilli Liderimiz Heydər Əliyev müstəqillik ideologiyasının banisi və müəllifidir. Bu zəngin nəzəri-siyasi irsin tərkibində milli müstəqillik, müasirlik və Azərbaycançılıq ideologiyası mühüm yer tutur.

“Ailə dəyərlərinin formalaşmasında Ulu Öndər Heydər Əliyevin rolu” mövzusunda məruzə edən Ədliyyə Nazirliyinin Hüquqi şəxslər və vətəndaşlıq vəziyyəti aktları bölməsinin baş məsləhətçisi, kiçik ədliyyə müşaviri Reyhan Sadiqova diqqətə çatdırıb ki, cəmiyyətin inkişafı ailələrin inkişafından asılıdır. Bununla bağlı Ulu Öndərin təşəbbüsü və dəstəyi ilə ailənin möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində Azərbaycan mühüm Beynəlxalq konvensiyalara qoşulub və respublikamızda müvafiq qanunlar qəbul edilib.

Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasının müəllimi Yunis Xəlilov “Ümummilli Lider Heydər Əliyev – müstəqil Azərbaycan Konstitusiyasının memarı” mövzusunda çıxışında vurğulayıb ki, Ümummilli Liderin göstərdiyi əvəzsiz səylər nəticəsində 1995-ci il noyabrın 12-də qəbul edilən Azərbaycan Konstitusiyası fundamental bir sənəd kimi demokratik inkişaf, hüquqi dövlətçilik və insan haqları sahəsində mütərəqqi dünya təcrübəsinin başlıca nailiyyətlərini özündə əks etdirir.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***



Culfa Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə “Ümummilli Lider Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü” mövzusunda tədbir keçirilib. Əvvəlcə Ulu Öndərin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi yad edilib.

Culfa Rayon Mədəniyyət Sarayında keçirilən tədbirdə rayon icra hakimiyyətinin başçısı Siyam Hacıyev 2023-cü ilin “Heydər Əliyev İli” elan olunması barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı Sərəncamın əhəmiyyətinə toxunaraq Ulu Öndərin həyat və fəaliyyətinin araşdırılması, öyrənilməsi, təbliği, gələcək nəsillərə çatdırılması baxımından əhəmiyyətini bildirib.

Ümummilli Liderin təməlini qoyduğu mütərəqqi siyasi irsin onun layiqli varisi olan dövlət başçımız tərəfindən qətiyyətlə həyata keçirildiyini qeyd edən icra başçısı deyib ki, milli qurtuluşdan başlanan Zəfər yolu xalqımızı Tarixi Qələbəyə aparıb.

Qeyd olunub ki, Ümummilli Liderin ən böyük arzusu 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə, rəşadətli Ordumuzun, xalqımızın sarsılmaz birliyinin və vəhdətinin nəticəsi olaraq doğma Qarabağımızın düşmən işğalından azad edilməsi ilə həyata keçirildi.

Vurğulanıb ki, Prezident cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə bu gün müstəqil Azərbaycan özünün ən qüdrətli dövrünü yaşayır. Həyata keçirilən çoxşaxəli islahatlar, uğurlu daxili və xarici siyasət sayəsində sabitlik diyarı və inkişaf məkanı kimi tanınan, regional güc mərkəzi kimi strateji hədəflərə doğru əmin addımlarla irəliləyən ölkəmizin dünya birliyindəki mövqeyi əhəmiyyətli dərəcədə möhkəmlənir.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı, Milli Məclisin deputatı Ülviyyə Həmzəyeva bildirib ki, Ulu Öndər Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqımızın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülüb. Görkəmli dövlət xadiminin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri unudulmazdır.

Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov qeyd edib ki, 1991-ci il sentyabr ayının 3-də xalqın təkidli tələbi ilə Ulu Öndərin Naxçıvanda Ali Məclisin Sədri vəzifəsinə seçilməsi ilə müstəqil milli dövlət quruculuğu prosesinə başlanılıb. Həmin dövrdə xalq öz taleyini Yeni Azərbaycan Partiyasının yaradıcısı və lideri, müdrik siyasi xadim Heydər Əliyevə etibar etdi. Qısa müddətdə ölkəmizdə tarixi islahatlar aparıldı, bazar iqtisadiyyatı formalaşmağa başladı. Torpaq və aqrar islahatlar həyata keçirildi, sahibkarlıq inkişaf etdi, bir çox qanunvericilik aktları qəbul edildi. Bu gün isə Ulu Öndərin siyasi kursunun dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilməsi nəticəsində müstəqil Azərbaycanın nüfuzu və şöhrəti durmadan artır, ölkəmizdə hökm sürən sabitlik, həyata keçirilən daxili islahatlar xarici ölkələrlə əlaqələrimizin genişlənməsinə müsbət təsir göstərir.

Sonra “Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir” adlı sənədli film nümayiş olunub.

**✍ Aidə İBRAHİMOVA**

* * *

*Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında “Ulu Öndər Heydər Əliyev və Azərbaycanda kitabxana işi” mövzusunda dəyirmi masa keçirilib.*

Tədbiri kitabxananın direktoru Tamella Əsgərova açaraq qeyd edib ki, dahi şəxsiyyət Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi əbədilik qazanmışdır. Görkəmli dövlət xadimi öz siyasi bacarığını, çoxillik idarəçilik səriştəsini əsirgəmədən xalqının firavanlığı



və dövlətinin müstəqilliyi yolunda yorulmadan xidmət göstərməsi ilə Ümummilli Lider səviyyəsinə yüksəlmişdir. Kitab və kitabxana işinə yüksək qiymət verən, onu Azərbaycan mədəniyyətinin aparıcı sahəsi kimi dəyərləndirən Ulu Öndər kitabxana işinin inkişafına xüsusi diqqət yetirirdi. Bu proses XX əsrin 70-ci illərinin əvvəllərindən başlamış və müstəqillik illərində də davam etmişdir.

Kitabxananın elmi işlər üzrə direktor müavini Yeganə Səfərova “Ulu Öndər Heydər Əliyevin Azərbaycanda kitabxana işinin inkişafına qayğısı” mövzusunda çıxış edərək bildirib ki, Ümummilli Liderin rəhbərliyi dövründə kitabxana şəbəkəsinin sürətli inkişafı, bir sıra şəhərlərdə və rayon mərkəzlərində yeni kitabxana binalarının tikilməsi, kitabxanaçı kadrların hazırlanması sahəsində səmərəli tədbirlərin həyata keçirilməsi, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində möhtəşəm işlər görülmüşdür. Bu siyasət bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sonra dəyirmi masa ətrafında mövzuya uyğun müzakirələr aparılıb, 2023-cü il “Heydər Əliyev İli”dir adlı sərgiyə baxış keçirilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Yerli istehsal məhsullarının yüksəkkeyfiyyətli olması istehlakçıların rifahına xidmət edir



Muxtar respublika iqtisadiyyatının davamlı inkişafı, ixrac potensiallı məhsul istehsalının artması, yeni istehsal sahələrinin yaradılması keyfiyyətə nəzarət işinin əhəmiyyətini günügündən artırmaqdadır. Bu çərçivədə istehlak bazarında keyfiyyətli yerli məhsulların istehsalının təşviqi, həmçinin istehlakçı hüquqlarının müdafiəsi qarşıya qoyulmuş mühüm və təxirəsalınmaz vəzifələrdəndir. Bu istiqamətdə fəaliyyət çərçivəsində 2023-cü ilin I rübü ərzində, ümumilikdə, məhsulların 226 halda, o cümlədən qida məhsullarının 225 halda keyfiyyət göstəricilərinin yoxlanılması təmin olunmuşdur.

Muxtar respublikanın təbii-iqlim şəraiti və kənd əhalisinin çoxəsrlik təcrübəsi bu qədim diyarda meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üçün geniş imkanlar yaradır. Bu istiqamətdə qəbul edilmiş müvafiq Dövlət proqramlarının icrası və aqrar sahədə müasir infrastrukturun yaradılması muxtar respublikada kənd təsərrüfatı və onun müxtəlif sahələrinin, inkişafına böyük dəstək verməkdədir. Məhz bu münbit şəraitdən əlverişli istifadə edilməsi və rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı Naxçıvanda ərzaq təhlükəsizliyinin dayanıqlığını təmin edən başlıca faktordur. “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə” və “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair” Dövlət proqramlarının müvafiq bəndlərinin icrası istiqamətində aparılan tədbirlərə uyğun olaraq meyvə-tərəvəz məhsullarının 35 halda, emal olunmuş kənd təsərrüfatı məhsullarının 26 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya analizləri aparılmış, nəticələrin texniki normativ-hüquqi aktların və standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Bu gün muxtar respublikada əhali tələbatının etibarlı təminatında yerli sənaye müəssisələrinin rolu danılmazdır. Bu baxımdan rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının təşviqi, innovasiyalara əsaslanan yeni müəssisələrin qurulması, bu istiqamətdə uğurların daha da artırılması əsas hədəf kimi müəyyənləşdirilib. 2023-cü ilin I rübü ərzində sənaye məhsullarının 107 halda laboratoriya analizləri aparılmış və bu istiqamətdə nöqsan aşkar edilməmişdir.

Muxtar respublikada ailə təsərrüfatlarının inkişafı istiqamətində sistemli tədbirlər həyata keçirilir, istehsalın genişləndirilməsi, əhali məşğulluğunun artırılması, kiçik və orta biznesin formalaşması daim diqqət mərkəzində saxlanılır. Dövlət tərəfindən bu fəaliyyət sahəsinin stimullaşdırılması ilə bağlı atılan addımlar ailə təsərrüfatlarının sayının artmasına və inkişafına münbit şərait yaradıb. “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı”nın icrası istiqamətində 2023-cü ilin I rübü ərzində 10 ailə təsərrüfatı üçün istehsal etdikləri məhsulların etiketlərində məhsulun adının və digər məlumatların orfoqrafik qaydalara uyğun yazılmasını, saxlanma şəraitinin və yararlılıq müddətinin qüvvədə olan standartların tələblərinə uyğun göstərilməsini təmin etmək məqsədilə 39 etiket layihəsinin hazırlanmasına metodiki köməklik göstərilmişdir. Həmçinin “Naxçıvan qovurması” istehsalının genişləndirilməsi, kiçikhəcmli taralarda qablaşdırılması və ixracının dəstəklənməsi, meyvə və tərəvəzlərin, bostan məhsullarının qurudulması, qablaşdırılması, etiketlənməsi ilə bağlı Kənd Təsərrüfatı Nazirliyinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin əməkdaşları ilə birlikdə 2023-cü ilin 24 fevral tarixdə Culfa rayonunun Əbrəqunus kəndində və 30 mart tarixində Ordubad rayonu, Sabirkəndə ailə təsərrüfatları üçün seminar-müşavirə keçirilmiş, ümumilikdə, 60 ailə təsərrüfatının nümayəndələrinə maarifləndirici bukletlər və “Naxçıvan qovurması” əmtəə nişanlı etiketlər təqdim olunmuşdur. Görüşlər zamanı ailə təsərrüfatı məhsullarının tədarükünü və satışını asanlaşdırmaq məqsədilə ölkəmizin digər bölgələrində ailə təsərrüfatı məhsullarının satışını həyata keçirən təsərrüfat subyektlərinə məxsus 60 ünvan kartı ailə təsərrüfatı nümayəndələrinə paylanılmışdır.

“Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası üzrə Kənd Təsərrüfatı Nazirliyinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin və müvafiq yerli icra hakimiyyətinin əməkdaşları ilə birlikdə 2023-cü ilin 29 mart tarixdə Culfa rayonunun Ərəzin kəndində, ümumilikdə, 20 nəfərdən ibarət kənd təsərrüfatı məhsulları istehsalçılarının iştirakı ilə seminar-müşavirə keçirilmiş, iştirakçılara “Üzvi gübrələr” və “Mineral gübrələr” adlı bukletlər və kənd təsərrüfatı məhsulları üzrə standartlarda müəyyən edilmiş təhlükəsizlik tələblərinə dair çıxarışlar təqdim olunmuşdur.

Muxtar respublikada keyfiyyət infrastrukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilməkdədir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin mətbuat xidməti***

## Sosial sığorta haqları üzrə daxilolmalar 37 milyon manatdan çox olub

Naxçıvan Muxtar Respublikasında 2023-cü ilin yanvar-mart aylarında məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 37,3 milyon manat təşkil etməklə ötən ilin müvafiq dövrü ilə müqayisədə 16,9 faiz və ya 5,4 milyon manat artıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar ötən ilin eyni dövrünə nisbətən 25 faiz artaraq 10,1 milyon manat təşkil edib.

Cari ilin yanvar-mart aylarında işsizlikdən sığorta haqları üzrə daxilolmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 19,7 faiz artıb və 938 min manata çatıb.

2023-cü ilin birinci rübündə icbari tibbi sığorta haqları üzrə daxilolmalar 5,6 milyon manat olmaqla ötən ilin eyni dövrünə nisbətən 16,5 faiz artıb.

## Vergi daxilolmaları 55,5 faiz artıb

Naxçıvan Muxtar Respublikasında büdcəyə vergi daxilolmalarında müsbət dinamika davam edir. 2023-cü ilin birinci rübündə Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 36,6 milyon manat vergi daxil olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 34,5 faiz çoxdur. Təkcə, bu ilin mart ayında vergi daxilolmaları 2022-ci ilin müvafiq dövrünə nisbətən 55,5 faiz və ya 5,1 milyon manat artıb.

**Xəbərlər şöbəsi**

Qərbi Azərbaycan: Tarixi faktların və şahidlərin dili ilə

## Qəlbi yurd həsrəti ilə yanan insanların ümidləri doğrulacaq

*Qədim Şərur torpağında bir kənd var... Doğma yurdundan zorla qovulub çıxarılaraq qoynuna pənah gətirən insanlara qucaq açan Danyeri kəndi. Burada əzəli torpaqlarımız olan Qərbi Azərbaycanın 50-dən çox kəndindən zorla qovulan sakinləri yurd salıb, yuva qurub. Dərələyəz mahalının Ələyəz, Qovuşıq, Qabarlı, Güllüdüzü, Qaraqaya, Gədik, Ağkənd, Qışlaq, Vəndi kəndlərindən gəlmiş ailələrin bir qismi müxtəlif illərdə Danyerinə üz tutub. 85 yaşlı* ***Əli Abışov****un da ailəsi 1968-ci ildə Qərbi Azərbaycanın Yexeqnadzor rayonunun Hors kəndindən Naxçıvana pənah gətirib.*



Onun dediklərindən: – Azərbaycanın başına gətirilən ən böyük müsibət erməni tayfalarının bu torpaqlara köçürülməsi olub. Dədə-baba yurdlarımıza köçürülən bu tayfanın nümayəndələri dağdan gəlib bağdakını qovmağa, ona zülm etməyə başlayanda anladıq bunların niyə ailələrinin ən gözəl qızını bizim əli iş tutmayan, sağlamlıq imkanları məhdud olan oğullarımıza layiq bildiklərini, niyə bizə mehriban davranıb ən igid oğullarımıza kirvə olduqlarını. Sovetlər birliyi yaranandan sonra isə “qardaş” olub, Vətənimizin ən dilbər guşələrinə köçüb Sovet İttifaqının verdiyi imkanlardan da yararlanıb Azərbaycan vətəndaşı oldular. Onlar dövlətimizin bütün vətəndaşlarına göstərdikləri qayğıdan yararlanıb həkim olub Xankəndinin, Şuşanın xəstəxanalarında dünyaya gələn oğlan uşaqlarına vurduqları iynələrlə onları ölümə sürüklədi və ya ömürboyu şikəst qoydu. Mühəndis olub Ağdamda, Şuşada inşa etdikləri evlərin himinə, divarlarının arasına xaç çəkdilər. Alim olub tariximizi, milli-mənəvi dəyərlərimizi saxtalaşdırıb özününküləşdirdilər. Bu vəhşi xalqın nümayəndələri məqam tapan kimi qız-gəlinimizin namusuna toxunub alnımıza qara ləkə yaxmaqla da ürəyi soyumadı, onlara bağışlanan qədim İrəvan, tarixi Göyçə, Zəngəzurla da doymadı gözləri.







Həmin günləri yada salan müsahibim dedi: – Yaşadığımız ərazidə, demək olar ki, hər kəs azərbaycanlı idi. Bizim yaşadığımız ərazinin torpaqları ermənilər yaşayan yerlərə görə daha səfalı olduğu üçün onlar yavaş-yavaş bizim məskunlaşdığımız kəndlərə köçməyə başladılar. Elə ağrılı-acılı günlərimiz də bundan sonra başladı. Erməni əhalisi tez-tez dava salır, evləri, bağ-bağçaları talan edirdi. Polis məmurlarına şikayət edəndə də heç bir tədbir görülmürdü. Ailələrimiz, qız-gəlinlərimiz hər an təhlükə qarşısında qalırdı. Ona görə də ailəmi və övladlarımı götürüb evimizi tərk etməli oldum. Şərur rayonunun Danyeri kəndində bizə dövlət tərəfindən torpaq sahəsi verildi. Sovxoza işə getdik. Güzəranımızı qurmağa başladıq. Çox çətin, məşəqqətli günlər yaşadıq.

Evin xanımı, 80 yaşlı ***Çiçək xala*** həmin günləri yada salır:

– Biz bu kəndə gələndə burada cəmi dörd ailə yaşayırdı. Torpaq o qədər daşlı idi ki, əkin əkmək olmurdu. Əlimizlə o daşları bir-bir təmizləyib əkin əkirdik. Uşaqlarım körpə olduğu üçün çox əziyyət çəkmişəm. Yurdumuzdan, yuvamızdan didərgin düşdüyümüz bəs deyil, burada da çətinlik çəkirdik. Heç bir köməyimiz yox idi. Geri qayıda da bilmirdik. Məcbur qalıb şəraitə uyğunlaşmalı olduq. Yeni gəldiyimiz vaxtlarda köhnə bir inzibati tikilidə yaşadıq. Sonralar işləyib yavaş-yavaş ev tikib balalarımızı başımıza yığıb yaşadıq. Sovetlər dönəmində onların bizə düşmənçilikləri gizli şəkildə aparılırdısa, sonralar daha sərt şəkildə oldu. Azərbaycanlılar yaşayan kəndlər ard-arda hücumlara məruz qaldı. Evlər yandırıldı, insanlar qətlə yetirildi, evini tərk etməyənlərin hər şeyi talan edildi. Qız-gəlinlərimiz təhqir edildi. 1988-1990-cı illərdə hələ də orada yaşayan insanlar kütləvi şəkildə qovuldu və ya qaçmağa məcbur oldu. Heç yadımdan çıxmaz, ailəmlə birlikdə 1968-ci ildə bu kəndə köçsəm də, bacımın ailəsi 1988-ci ilə kimi orada yaşayırdı. Onlar 89-cu ildə məcbur qalıb oradan erməni hərbçilərin zoru ilə çıxarılıb Naxçıvana gəlmişdilər. O qədər ailə köç etmişdi ki, hamı bir-birinə qarışmışdı. Bacımın övladları qarışıqlıqda itmişdi. Heç yadımdan çıxmaz, düz 7 gün Naxçıvana köç edən ailələrin içindən onları tapa bilmədik. Sonradan Babək rayonunda olduqlarını öyrənib, gedib tapdıq. Çox çətin günlər idi. Bacım deyirdi ki, elə ki xalqımızın Böyük oğlu Heydər Əliyev sovet rəhbərliyindən uzaqlaşdırıldı, ermənilərin bizə olan hücumları daha da alovlandı, aşkar şəkil aldı. Onların qorxusundan çölə çıxa bilmirdik. Bir tikə çörəyi də gecələr gizlincə bişirib evə gətirirdik. Nə uşağa, nə qocaya, nə də qadınlara yazıqları gəlirdi. Kim gəldi süngüdən keçirirdilər. Kəndlərdəki başıpapaqlıları bir-bir öldürür, böyüksüz qalan evlərə hücum edirdilər. Pisi də o idi ki, sovet polisi bizi qorumurdu, onlara haqq qazandırırdı.

Çiçək xala onu da ürək yanğısı ilə dedi ki, doğulub boya-başa çatdıqları torpağı unutmaq o qədər çətindir ki. Ata-babalarımızın, əzizlərimizin məzarlarını tərk etmək məcburiyyətində qaldıq və bu gün də həsrətlə həmin yurda dönməyi arzu edirik.

Digər müsahibim ailənin yaxın qohumu ***Yaqub Həsənov***un da ailəsi Vedi rayonunun Hortun kəndindən öncə Şərur rayonunun Cəlilkəndinə, sonra isə Danyeri kəndinə köç edib. Beş oğul övladı olan bu ailə də bir çox çətinliklərlə qarşılaşsa da, necə deyərlər, daşı torpaqdan ayırıb, torpağı ələyib, özlərinə yurd-yuva qurublar. Yaqub dayı dedi ki, qardaşları Bərdə və Gəncə şəhərlərində yurd salıb orada yaşasalar da, o, Naxçıvanda qalıb. Anası və atasının yurd həsrəti ilə dünyadan köçdüyünü deyən Yaqub dayı bildirdi ki, ümidimiz sonsuzdur. Əminik ki, Ulu Öndərin davamçısının, dövlətimizin başçısının hərb meydanında qazandığı qələbə bizi öz yurdumuza da qaytaracaq.

Onlar zorla öz yurdlarından köçürüləndən sonra Azərbaycanın müxtəlif rayonlarında yerləşdiriliblər. Göyçədən, Dərələyəzdən, Vedidən və digər əzəli dədə-baba yurdlarımızdan məcburi şəkildə çıxarılan insanlar öz doğma Vətənləri Azərbaycanda yurd-yuva salsalar da, ürəkləri hələ də dünyaya göz açdıqları yurdlarda döyünür. Onlar Göyçənin, Dərələyəzin ətirli havası, bərəkətli torpağının həsrətini çəkirlər. Onlar ömürlərinin son baharında öz doğma ocaqlarının qapısını açmaq istəyirlər, o yerlərin ətirli havasını ciyərlərinə çəkməyi arzu edirlər. Və inanırlar ki, bunlar olacaq. Onların inamı sonsuzdur və bu inam əbəs yerə deyil. Üç il öncə qazandığımız zəfər insanların qəlbində bu inam işığını yandırıb. Müzəffər Ali Baş Komandanın ***“Biz də, Qərbi azərbaycanlılar da heç vaxt inamı itirməməliyik. İnanmalıyıq və eyni zamanda addımlar atmalıyıq, fəal olmalıyıq, işləməliyik. Gün gələcək, biz Qərbi Azərbaycanda da belə gözəl məclis keçirəcəyik və bu günü xatırlayacağıq”*** sözləri insanları gələcəyə ümidləndirir. Onlar əmindir ki, Şuşada, Laçında, Kəlbəcərdə yanan çıraqlar kimi, Zəngəzurda, Göyçədə, Mehridə də odumuz-ocağımız alovlanacaq. Ağalıya sevinə-sevinə qayıdan sakinlər kimi, onlar da öz ata yurdlarına dönəcəklər. Axarlı-baxarlı Göyçə gölünü, gözəl meşəli, gur çaylı Dərələyəzi, Naxçıvanı anası Azərbaycana birləşdirən Mehri dağlarını görəcəklər. Bütün Qərbi azərbaycanlılar buna əmindir, çünki Azərbaycanın dünyaya meydan oxuyan Müzəffər Ali Baş Komandanı və bir qarış torpağı öz canından əziz bilən nər oğulları var.

✍ **Ramiyyə ƏKBƏROVA**

## *“Liderliyə gedən yol”* mövzusunda uşaqlarla görüş keçirilib

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Culfa Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Culfa şəhər 2 nömrəli tam orta məktəbdə Milli Məclisin deputatı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyevanın “Liderliyə gedən yol” mövzusunda uşaqlarla görüşü keçirilmişdir.

Görüşdə rayon İcra Hakimiyyəti başçısının müavini Vüsal Məmmədzadə, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aytən Məmmədova çıxış etmişlər.

Sonda Ülviyyə Həmzəyeva “Liderliyə gedən yol” mövzusunda uşaqların şəxsi karyera və inkişafla bağlı fikir və təkliflərini dinləmiş, onları maraqlandıran sualları cavablandırmışdır.

***Naxçıvan Muxtar Respublikası***
***Ailə, Qadın və Uşaq Problemləri***
***üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Dərman qiymətlərinin tənzimlənməsi ilə bağlı işlər aparılır

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı sosial-iqtisadi siyasətin əsas hədəfi əhalinin rifahının davamlı olaraq yaxşılaşdırılmasıdır. Demək olar ki, həyata keçirilən bütün tədbirlər birbaşa bu məqsədə xidmət edir. Sosial sahədə həyata keçirilən sistemli tədbirlərdən əlavə, əhalinin maddi vəziyyətinə müsbət təsir edən bir sıra qərarlar da qəbul edilmişdir.

Dərman vasitələrinin qiymətləri də sosial baxımdan xüsusi əhəmiyyət kəsb edən məsələdir. Belə ki, dərman vasitələrinin qiymətlərinin səviyyəsi vətəndaşların öz sağlamlıqları üçün ayırdığı xərclərə birbaşa təsir etdiyindən bu sahəni diqqət mərkəzində saxlayır. Bunun nəticəsidir ki, “Dərman vasitələri haqqında” Qanuna edilmiş dəyişikliklərdə dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətləri dövlət tənzimlənməsinə aid edilmişdir. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinə dərman vasitələrinin satışında qiymət intizamına, o cümlədən dərman vasitələrinin qiymətlərinin qablaşdırmanın üzərində göstərilməsinə nəzarətin həyata keçirilməsi tapşırılmışdır.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən də bu məqsədlə işlər aparılır. Belə ki, nazirliyin aidiyyəti şöbəsi tərəfindən Naxçıvan şəhərində fəaliyyət göstərən 57 əczaçılıq müəssisəsində dərman vasitələrinin satışında qiymət intizamına, o cümlədən dərman vasitələrinin qiymətlərinin qablaşdırmanın üzərində göstərilməsinə əməl olunması ilə bağlı maarifləndirici monitorinqlər aparılmış və qanunun tələbləri ətraflı şəkildə izah olunmuşdur. Dərman vasitələrinin topdan və pərakəndə satışını həyata keçirən bütün təsərrüfat subyektləri bu tələblərə əməl etməlidirlər.

Qanunvericiliyə əsasən dövlət qeydiyyatından keçən dərman vasitələrinin təsdiq edilmiş qiymətdən fərqli qiymətə satışı qadağandır və bu hallara görə məsuliyyət tədbirləri nəzərdə tutulur.

İstehlakçılar dövlət qeydiyyatından keçən 13740 dərman vasitəsinin təsdiq edilmiş qiymətləri barədə məlumatları *www.tariff-council.gov.az* rəsmi internet səhifəsində əldə edə bilərlər.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi istehlakçılara dərman vasitələri alan zaman qiymətlərin müəyyən edilmiş qiymətlərlə uyğunluğuna xüsusi diqqət yetirmələrinin vacibliyini bildirir. Qiymətlərin düzgün tətbiq olunmaması halları ilə rastlaşdıqda nazirliyin qaynar xəttinə (545-75-77) müraciət edə bilərlər.

***Naxçıvan Muxtar Respublikası***
***İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Müəllimlər İnstitutu

### *Fəlsəfə doktoru hazırlığı üzrə 2023-cü il üçün doktoranturaya və dissertanturaya qəbul elan edir*

Naxçıvan Müəllimlər İnstitutunda doktorant və dissertant hazırlığı üzrə 2023-cü il üçün qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 mart 2023-cü il tarixli 261 s nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2023-cü il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları” əsasında aparılır.

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla* |
| | | | əyani | qiyabi | |
| 1202.01 | Analiz və funksional analiz | 1 | | 1 | |
| 5706.01 | Azərbaycan dili | 1 | | 1 | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | | 1 | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə) | 2 | | 2 | 1 |
| 5803.01 | Müəllim hazırlığı və fəaliyyəti | 1 | | 1 | |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 1 | | 1 | 1 |
| 6104.01 | Pedaqoji psixologiya | 1 | | 1 | 1 |
| | **Cəmi:** | **8** | | **8** | **3** |

* Dissertant hazırlığı üzrə adambaşına maliyyələşmə nəzərdə tutulmadığı üçün dissertanturada hazırlıq ali təhsil müəssisələrinin öz əməkdaşları üçün həmin müəssisənin hesabına, digər şəxslər üçün isə ödənişli əsaslarla aparılır.

Doktoranturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin *portal.edu.az* saytına daxil olmalı, orada “Ali və orta ixtisas təhsil müəssisələrini tələbə qəbulu və qeydiyyatı” xidmətini seçərək təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər. Portal vasitəsilə müraciətlərin göndərilməsi 12 aprel 2023-cü tarixdən başlayır. 16 may 2023-cü il sənəd qəbulunun son tarixidir.

Fəlsəfə doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya sənəd verən iddiaçılar xarici dil imtahanında iştirak etmək üçün sənəd qəbulu bitdikdən sonra Dövlət İmtahan Mərkəzinin saytında şəxsi kabinet açaraq qeydiyyatdan keçməlidirlər. Qeydiyyatdan keçən vətəndaşların sənədləri Naxçıvan Müəllimlər İnstitutu üzrə təyin edilmiş şəxs tərəfindən yoxlanılıb təsdiq edilməlidir.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq istəyən şəxslər Xarici dil, Fəlsəfə və İxtisas fənlərindən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən Xarici dil imtahanında keçid balını toplayan şəxslər Fəlsəfə fənnindən imtahana buraxılırlar. Fəlsəfə fənni üzrə məqbul alan şəxslər ixtisas fənni üzrə imtahanda iştirak etmək hüququ əldə edirlər.

Fəlsəfə doktoru proqramı üzrə dissertanturaya müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan elmi və elmi-pedaqoji kadrlar müraciət edə bilərlər. Dissertant kimi təhkim olunmaq istəyən şəxslər azı iki il elmi və ya elmi-pedaqoji iş stajına malik olmalı və Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən Xarici dil imtahanında keçid balını toplamalıdırlar.

Xarici dil imtahanını müvəffəqiyyətlə vermiş, doktoranturaya qəbul olmaq istəyən şəxslər üçün fəlsəfə fənni üzrə imtahan 4,5,6 sentyabr 2023-cü il tarixlərdə, ixtisas imtahanı 11,12,13 sentyabr 2023-cü il tarixlərdə ali təhsil müəssisəsində keçiriləcəkdir. İmtahanlarını müvəffəqiyyətlə vermiş namizədlər müsabiqə əsasında seçdikləri ixtisas üzrə doktoranturaya qəbul olunurlar.

Əlavə məlumat almaq üçün Naxçıvan Müəllimlər İnstitutunun Elmi hissəsinə müraciət etmək olar.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 2.***
***Naxçıvan Müəllimlər İnstitutu Elmi hissə***
***(otaq № 208)***
***Əlaqə telefonları:(+994 36) 544 04 29***
***E-mail: elmihisse@nmi.edu.az***

### *İtmişdir*

Vəliyev Rza Əkbər oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Əliyev Nurəddin Qəmbər oğlunun adına olan 1213B inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Türkiyə vətəndaşı Ahmet Ömer Uçara məxsus pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 262